Yeni Azərbaycan.- 2023.- 24 yanvar.- S.8.

**İkinci Dünya müharibəsi bəşər tarixində ən qanlı savaş sayılır. 50 milyondan çox insanın həyatına son qoyan bu savaş faşizmə qarşı çarpışan qəhrəmanlarını da yetişdirdi. Onlardan biri Azərbaycan övladı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovdur.**




# İki dəfə Sovet İttifaqı Qəhrəmanı...

## Həzi Aslanovun anım günüdür

Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran rayonunun Gərmətük qəsəbəsində doğulub. İbtidai təhsili şəhər 1 saylı orta məktəbində alıb. 13 yaşında atasını itirən Həzi kərpic zavodunda fəhlə işləyib, sonra Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilib. 1924-30-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929-cu ildə Leninqrad süvari məktəbinə daxil olub. İki illik təhsildən sonra Kotovski adına III Bessarabiya süvari diviziyasında taqım komandiri təyin olunub.

**Müharibəni Ukraynada qarşıladı**

Onda Ukraynada xidmət edirdi. 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə özünü bacarıqlı zabit kimi göstərdi. 1941-ci ilin dekabrında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə Qırmızı Ulduz ordeninə layiq görüldü. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə onun başçılığı ilə 35-ci tank briqadası düşmənə ağır zərbələr endirdi. Aslanovun tankçıları vuruşa-vuruşa 40 kilometrdən artıq yol gedib Stalinqrad Salsk dəmir yolunu tutub almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum etdilər. Tanklar düşmənin xeyli qüvvəsini və texnikasını sıradan çıxarmışdılar. Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığında gedən döyüşlərdə böyük şücaət göstəriblər.

1944-cü il avqustun 1-də Aslanovun briqadası başqa ordu hissələri ilə birlikdə Yelqava şəhərini düşməndən təmizləyir. Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı zabit kimi göstərmişdi. Təkcə 1944-cü ilin hücum döyüşləri dövründə 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür almışdı. İki dəfə Qırmızı Ulduz, 3 dəfə Qırmızı bayraq, Aleksandr Nevski, İkinci dərəcəli Suvorov Ordeni, 1-ci dərəcəli Vətən Müharibəsi ordeni və saysız medallarla təltif edilmişdi.

**Müəmmalı ölüm**

Həzi Aslanov 24 yanvar 1945-ci ildə Mitava şəhəri yaxınlığında müəmmalı şəraitdə həlak olur. 24 yanvar 1945-ci ildə Həzi Aslanov zabitlərin müşayiəti ilə cəbhə xəttini yoxlayan zaman qəflətən onun durduğu yerdə ardıcıl olaraq mina partlayır. Yaralanmış generalı həkim-sanitar rotasına gətirirlər. Hadisənin şahidi olan 35-ci həkim-sanitar xidmətinin komandiri mayor Georgi Beqişvili qeyd edir ki, gətirilən zaman Həzi Aslanov huşsuz olub. O, sağ böyrək ətrafından ağır zədə almışdı. Çoxlu qan itirən generala Beqişvili donorluq edir və onun qanını Həzi Aslanova köçürürlər. Şahidlər qeyd edirlər ki, Həzi Aslanovun olduğu yer döyüş əməliyyatlarından xeyli uzaq olub. Minanın orada hansı şəraitdə partlaması indiyə qədər aydınlaşmayıb.

**47 il gecikən fərman**

Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən 47 il sonra, 1991-ci ildə çatır... Bunun öz səbəbləri vardı. 1944-cü ilin iyulunda 3-cü Belarusiya cəbhəsinin komandanı, ordu generalı İ. Çernyaxovski Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsi ilə bağlı sənəd imzalayır. Lakin bu sənəd müəmmalı səbəblərdən ünvanına çatmır. Bu məsələni araşdıran əməkdar incəsənət xadimi, kinorejissor-ssenarist, Mədəniyyət və İncəsənət Universitetinin professoru Musa Bağırovun sayəsində Həzi Aslanovla bağlı sənəd tapılır.

1983-cü ildə Azərbaycan televiziyasının sifarişi ilə M.Bağırov Həzi Aslanov barədə film çəkir. (General haqqında ilk filmini o, 1967-ci ildə çəkib). Filmin baxışında iştirak edən veteranlarla görüş zamanı ilk dəfə olaraq Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunması barədə məlumat səslənir.

Musa Bağırovun araşdırmaları nəticəsində bəlli olur ki, 28 iyun 1944-cü ildə Həzi Aslanovun 35-ci tank briqadası sürətli hücumla Berezina çayını keçərkən düşmən bunu əngəlləyə bilir. Həzi Aslanov ağlasığmaz qərar qəbul edir - əsas qüvvələrin gəlməyini gözləmədən avtomatçılar batalyonu və bir qrup partizanla sürətlə hücuma keçərək düşmən qarnizonunu darmadağın edir və Plesnitsa şəhərini azad edir. Bununla da ordunun Berezina çayını bütün cəbhə boyu keçməsi üçün şərait yaranır. Bundan sonra Aslanov ilk olaraq qəfil zərbə ilə Vileykanı azad edir. Bu hücum nəinki alman, elə sovet komandanlığı üçün də gözlənilməz olur.

Belarusiya cəbhəsinin komandanı, marşal Vasilevski Stalinə Vileyka şəhərinin azad olunması barədə raport verərkən Həzi Aslanovun rəhbərliyini xüsusi olaraq qeyd edib. Bu şücaətinə görə Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilir.

*Günel*